Bu Quranı daima oxuyun! Canım əlində olan Allaha and olsun ki, o (sahibini) kəndirdən açılıb qaçan dəvədən daha tez tərk edir

Əbu Musa Əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Bu Quranı daima oxuyun! Canım əlində olan Allaha and olsun ki, o (sahibini) kəndirdən açılıb qaçan dəvədən daha tez tərk edir".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sinələrdə əzbərlənən Quranı unutmamaq üçün ona bağlı qalmağı və onu mütəmadi olaraq oxumağı əmr etmişdir. O (Allahın salavatı və salamı onun üzərinə olsun) and içərək təkid edir ki, Quranın sinələrdən itməsi və getməsi, ayağının ortasından iplə bağlanmış dəvənin ipdən qurtulub qaçmasından daha asandır. Əgər insan Quranı oxumağa davam edərsə, onu saxlayar, əgər oxumağı buraxarsa, əzbərlədiyi gedər və itər.

http://www.sunnah.global/hadeeth/az/show/5907